# 15 İYUN-MİLLİ QURTULUŞ GÜNÜDÜR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №11 (7345) | 11 iyun 2014-cü il | Çərşənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## HEYDƏR ƏLİYEV- BÖYÜK XİLASKAR



Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyevin zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır.

«Həyatın mənası çox və ya az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».

Müdrik rəhbərimiz insan ömrünün, həyatın mənası barədə belə deyirdi. Onun öz həyatını göz önünə gətirsək, bu həyatın, keçdiyi ömür yolunun yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq; Azərbaycan. Canından artıq sevdiyi Azərbaycan uğrunda fəaliyyət göstərməyi, gecəli-gündüzlü zəhmətə qatlaşmağı, lazım gələrsə, bu yolda şəhid olmağı şərəf sayan ümummilli liderimiz deyirdi: « Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır». Ulu öndərimiz Azərbaycan naminə, bütöv, müstəqil Azərbaycan və azərbaycançılıq uğrunda çalışmış, mübarizə aparmış və həmişə də qalib gəlmişdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də elan olunsa da, onun əsl tarixi məhz qurtuluş günündən başlanır. Çünki ulu öndərimizin dediyi kimi, «tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir». Bu gün tam inamla söyləmək olar ki, o vaxt ölkədə baş verən hadisələrə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, Azərbaycan adlı dövlətin varlığına çoxdan son qoyulmuşdu.

Böyük bir imperiyanın çökməsi səbəbindən XX əsrin sonlarına doğru yenidən müstəqillik qazanmaq kimi tarixi fürsət əldə edən Azərbaycan qısa vaxtdan sonra bu müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşdi. Həmin dövrdə iqtidarda olanların səbatsız, səriştəsiz və xəyanətkar əməllərinin məntiqi nəticəsi olan hakimiyyət böhranı 1993-cü ilin iyununda ən yüksək nöqtəsinə çatmış, ölkəni xaos və anarxiya bürümüş, vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı.

21 il bundan əvvəl, doğma Vətənimiz və dövlətçiliyimiz üçün son dərəcə ağır sınaq günlərində xalq yeganə ümid və pənahını Heydər Əliyevdə tapdı, özünün dəfələrlə sınanmış müdirk və qüdrətli oğluna, ümummilli liderinə müraciət etdi. Heydər Əliyev xalqımızın çağırışına, israrlı və təkidli tələblərinə səs verdi. Böyük xilaskarlıq missiyasını öz üzərinə götürdü. Və tarixi qayıdışı Vətənimizi böyük təhlükələrdən xilas etdi.

Bu qayıdış bir tərəfdən tarixdə böyük şəxsiyyətlərin oynadığı rolun daha bir təsdiqi və ifadəsi idisə, ikinci tərəfdən xalqla milli liderin, rəhbərin qırılmaz tellərlə bağlılığının əyani nümunəsi idi. XI əsrin görkəmli siyasətçi və dövlət xadimi kimi tanınan Nizamilmülk deyirdi ki, «xalqın iradəsi rəhbərin dühası ilə birləşdikcə ölkə möhkəmlənər, günü-gündən inkişaf edər».

Lider və xalq bağlılığının klassik ifadəsi öz təsdiqini bir daha XX əsr Azərbaycan siyasi mühitində tapdı. Bir tərəfdən Heydər Əliyev şəxsiyyəti, qətiyyəti və dönməz iradəsi, ikinci tərəfdən xalq- Heydər Əliyev birliyi Azərbaycanı sonu görünməyən bəlalardan xilas etdi.

1993-cü ilin iyununda Heydər Əliyev görünməmiş enerji ilə fəaliyyətə başladı, ölkədə qayda-qanun yaratmaq, daxili sabitliyi təmin etmək, silahlı qüvvələri möhkəmləndirmək, erməni təcavüzkarları və onların havadarlarını dayandırmaq, beynəlxalq aləmə Azərbaycan həqiqətlərini çatdırmaq üçün böyük işlər gördü. Ümummilli liderimiz Heydər Əliyev qəti xarakterli, dönməz, cəsarətli,böyük enerjiyə malik olan dahi şəxsiyyət idi. Tarixi təcrübə sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar öz milli sərvətlərinə sahib olmaq və onları öz xalqının inkişafına yönəltmək imkanı qazanırlar. Qeyd etmək lazımdır ki, neftlə zəngin təbii sərvətlər dünyanın bir çox ölkəsində vardır. Lakin həmin sərvətdən heç də xalqın rifahı üçün lazımi səviyyədə istifadə edilmir. Yalnız ümummilli liderimiz Heydər Əliyev həmin sərvəti xalqın rifahına yönəltdi. Buna görə də ümummilli liderimiz xalqın əbədi yaddaşında əsrlər boyu yaşayacaq. Xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı qısa bir müddətdə vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli qurtuluşa nail oldu. Bundan sonra Azərbaycan sivill, demokratik, hüquqi dövlət qurmaq yolu ilə getdi.

Bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, müstəqillik uğrunda mübarizə əzmini və qətiyyətini bir az da möhkəmləndirdi.


**Anaxanım İSMAYILOVA,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar kollecinin tarix müəllimi**


**Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 96 illiyi bütün dünya azərbaycanlıları tərəfindən böyük təntənə ilə qeyd olundu. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük hadisə kimi daxil olmuşdur. 1918-ci ildə mayın 28-də Azərbaycanın istiqlaliyyətinin bərpa edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş şəxslərin- Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.**

## 28 MAY RESPUBLİKA GÜNÜ İLƏ ƏLAQƏDAR TƏDBİR




28 May Respublika Günü ölkəmizin hər yerində olduğu kimi, Şirvan şəhərində də təntənə ilə qeyd olunmuşdur. 28 May Respublika Günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər, konfranslar, dəyirmi masalar, ədəbi-bədii kompozisiyalar, sərgi və müsabiqələr təşkil olunmuşdu. Ümumşəhər tədbiri dolğunluğu ilə yaddaqalan oldu.

Mərkəzi Mədəniyyət evində baş tutan tədbir dövlət himnimizin oxunması ilə başlandı.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov məruzə etdi. Başçı dedi ki, 28 May-Respublika Günü Azərbaycan xalqı üçün çox əziz günlərdən biridir. Çünki bu tarixi gün şərəfli keçmişə ehtiram və gələcəyə inam hissini özündə birləşdirir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə nəzər salsaq, bu tarixin nə qədər şərəfli olduğunu görərik.

1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası Azərbaycanın müstəqilliyini elan etmək barədə qərar qəbul etdi. Bu məqsədlə Milli Şura təsis edildi. Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Müstəqilliyin elan edilməsi barədə 24 deputatın səsverməsi ilə Milli Şura 6 maddədən ibarət İstiqlal Bəyannaməsini qəbul etdi.

Azərbaycan Milli Şurası həmin iclasında Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökümətinin tərkibini təsdiq etdi.

Respublikamızda müstəqil dövlət quruculuğu prosesinə başlanıldı. Ölkəmizi düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün qəti tədbirlərə əl atıldı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın ilk dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da müsəlman hərbi korpusu ayrıca Azərbaycan korpusuna çevrildi.

Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin qırmızı rəngli dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu.

1918-ci il dekabrın 7-də saat 13-də H.Z.Tağıyevin qızlar məktəbinin binasında (hazırda Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) parlamentin təntənəli açılışı oldu. Bü, bütün müsəlman Şərqində dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi.

Ölkə parlamenti və hökuməti dövlət müstəqilliyinə xarici müdaxilə təhlükəsinin qarşısının alınması və cümhuriyyətin beynəlxalq aləmdə tanınması üçün də bir sıra tədbirlər həyata keçirdi.

1918-ci il dekabrın 28-də parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edildi. Görkəmli dövlət xadimi Ə.M.Topçubaşovun səyi ilə 1920-ci il yanvar ayının 11-də Azərbaycan Xalq Cümhuriyyəti bir sıra böyük dövlətlər tərəfindən tanındı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər rus ordusunun Şimali Azərbaycanı işğal etməsi ilə yarımçıq qaldı.

1920-ci il aprelin 27-də sovet ordusunun hərbi müdaxiləsi nəticəsində Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatıldı.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti və onun sonrakı tarixi inkişaf mərhələsinə təsiri barədə deyirdi: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirdi".

Elə bu idealların və ənənələrin yaşamasının nəticəsidir ki, xalqımız XX yüzilliyin sonunda yenidən öz dövlət müstəqilliyinə qovuşdu. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə"də Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin tarixi-siyasi varisi elan etdi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə yeni dövlətin nəzəri əsasları müəyyən edildi. Lakin 1991-1993-cü illərdə ölkəmizdə cərəyan edən hadisələr və sadə təhlillər göstərir ki, əgər 1993-cü ilin iyununda, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, müasir Azərbaycan Respublikası da sələfinin taleyini yaşayacaqdı. Heydər Əliyev yenidən istiqlaliyyətə qovuşmuş xalqımızı vətəndaş müharibəsindən, milli dövlətçiliyimizi isə məhvolma təhlükəsindən xilas etdi. Dünya şöhrətli siyasətçi, fenomenal zəka sahibi, böyük öndər Heydər Əliyev dövlətimizi, xalqımızı real təhlükələrdən qurtardı. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Respublikasını əbədi müstəqillik yoluna çıxartdı. Ulu öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də layiqincə davam etdirilir. Bu gün Azərbaycan yüksəliş zirvəsinə doğru qətiyyətlə irəliləyir. İqtisadi inkişaf tempinə görə dünyada lider dövlətə çevrilir. Respublikamızın hər yerində böyük abadlıq-quruculuq işləri aparılır. Biz şirvanlılar möhtərəm Prezidentimizin fəaliyyətinə öz əməli işimizlə dəstək veririk. Onun tapşırıq və tövsiyələrini ardıcıl yerinə yetiririk. İnanıram və əminəm ki, şirvanlılar bundan sonra da Heydər Əliyev siyasi kursuna sadiq qalacaq, Yeni Azərbaycan Partiyasının sədri, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevə, dövlət müstəqilliyimizin əbədiliyinə xidmət edəcəklər. Sizi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 96-ci ildönümü - 28 May Respublika Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Məruzə ətrafında 16 nömrəli tam orta məktəbin tarix müəllimi Samirə İsmayılova, 4 nömrəli tam orta məktəbin dil-ədəbiyyat müəllimi Sona Tağıyeva çıxış etdilər.

Məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Vətənimizə, müstəqilliyə, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər, mahnılar səsləndirildi.


**«İŞIQ»**
**Ə.AXUNDOV (foto)**

# «SON ZƏNG» ÇALINDI

**«Son zəng» tədbirləri şəhərimizin bütün məktəblərində təntənə ilə keçirilmişdir. Təhsil ocaqlarının kollektivləri bu tədbirə ciddi hazırlaşmışdılar. Onbirincilər üçün çalınan, xoş xatirələri silkələyən zəng Elçin İmanov adına 10 nömrəli beynəlmiləl tam orta məktəbdə də çalındı.**

Onu qeyd edək ki, şəhərimizin bu qabaqcıl məktəbində 1496 nəfər şagird təhsil alır. Məktəb 2008-ci və 2013-cü illərdə «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qalibi olub. 2012-13-cü tədris ilində bu təhsil ocağının 71 nəfər məzunu tələbə adını qazanıb. Qonaqları, məzunları, valideynləri salamlayan məktəbin direktoru Arif Əliyev dedi:

-Təlim-tərbiyəni günün tələbləri səviyyəsində qurmaq üçün pedaqoqlarımız imkanlarından maksimum istifadə edirlər.

Şagirdlərimiz istər bilik, istərsə də idman yarışlarında uğurlu göstəricilər qazanırlar.



«Xəmsə» intellektual yarışında Zəkəriyyə Buğdalıyeva respublikada 3-cü olmuşdur. Elnur Mirzəyev, Teymur Teyyubov, Hüseyn Balakişiyev idman sahəsində şəhərimizə və respublikaya şöhrət gətirirlər.

Bu il məktəbimizin 9-cu sinfini 163, 11-ci sinfini 111 nəfər şagird bitirir. İnanırıq ki, onlar da müəllimlərinin , valideynlərinin zəhmətini itirməyəcək, soraqları ali məktəb auditoriyalarından, istehsalatın müxtəlif sahələrindən gələcək.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov «Son zəng»də çıxış etdi. Başçı dedi ki, təhsilə, məktəbə, müəllimə qayğı, diqqət dövlət səviyyəsindədir. Ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva ölkədə təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü işlər aparırlar.

Təhsil müəssisələri əsaslı təmir olunur, yeniləri tikilir, onlar lazımi avadanlıqlarla təmin olunurlar. Təhsil işçilərinə qayğı və diqqət də ön plandadır. Nəticədə təhsilin səviyyəsi durmadan yüksəlir, cəmiyyətimiz üçün savadlı kadrlar yetişdirilir.

M.T.Camalov müəllimləri valideynləri, məzunları təbrik etdi. Məktəblə vidalaşan oğlan və qızlara uğurlar arzuladı. Valideyn Zeynal Zeynalov, 9 nömrəli məktəbin məzunu, C.Naxçıvanski adına hərbi liseyi bu il bitirib, Hərbi Aviasiya Akademiyasına daxil olmuş Ruslan Gözəlov və digər çıxış edənlər müstəqil həyatın astanasında duran məzunlara xalqımız, müstəqil Azərbaycanımız üçün layiqli vətəndaş olmağı arzuladılar.

Şəhərimizin digər ümumtəhsil ocaqlarında olduğu kimi, 10 nömrəli beynəlmiləl tam orta məktəbdə də «Son zəng» yüksək təşkilatçılıqla başa çatdı.

Yolunuz işıqlı olsun, əziz məzunlar!

# DEYİN, GÜLÜN BALALAR...



**Şəhərimizdə- Nəriman Nərimanov parkında 1 iyun-Uşaqları Beynəlxalq Müdafiə Günü əsl bayram əhval-ruhiyyəsi ilə qeyd olundu. Bayramsayağı bəzədilmiş parka toplaşmış uşaqlar, valideynlər, müəllimlər maraqlı tədbirin şahidi oldular.**

Onu da qeyd edək ki, tədbirdə şəhərin bütün körpələr evi-uşaq bağçalarının fidanları, məktəblərin gənc istedadları yaxından iştirak etdilər. Şirvan şəhər Təhsil şöbəsinin müdiri P.Nəbiyev çıxışında uşaqları bayramları münasibətilə təbrik etdi.Ölkəmizdə həyata keçirilən dövlət uşaq siyasətinin uğurlu nəticələrindən danışdı. Paşa müəllim bu istiqamətdə mükəmməl qanunvericilik bazasının yaradıldığını söylədi. Dedi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva bu sahəyə xüsusi diqqət yetirirlər. Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov da uşaqlara xüsusi qayğı və diqqətlə yanaşır. Bu gün şəhərimizdəki uşaq bağçaları, məktəblər səliqə-səhmanı, təchizatı ilə diqqəti cəlb edir. P.Nəbiyev çıxışının sonunda bir daha uşaqalrı təbrik etdi, onlara xoşbəxtlik, firavanlıq arzuladı.

Söz musiqiyə, mahnıya verildi.

20 nömrəli məktəbin şagirdi Səbuhi Abdullazadə iştirakçıları "Yaşa Azərbaycan" mahnısı ilə salamladı. 9 nömrəli tam orta məktəbin şagirdi Nərgiz Rzayevanın "Hind", 12 nömrəli tam orta məktəbin şagirdlərinin "Özbək" rəqsləri alqışlarla qarşılandı.

1 nömrəli lisey şagirdlərin kompozisiyası, 5 nömrəli məktəb şagirdlərin "Naz eləmə", "Nərgiz", "Qızıl gül", "Yasəmən", "Bənövşə" uşaq bağça fidanlarının rəqs nömrələri hərarətlə qarşılandı.

13 nömrəli tam orta məktəb şagirdlərinin hazırladıqları "Tıx-tıx xanım" nağılı, 2 nömrəli tam orta məktəb şagirdlərinin "Lalələr" rəqsi yaddaşlarda uzun müddət qalacaq.

Digər məktəb və uşaq bağçalarının uşaqları da bayrama əliboş gəlməmişdilər. Onlar 1 iyun-Uşaqalrı Beynəlxalq Müdafiə Gününü daha şən keçirmək üçün ciddi hazırlaşdıqlarını sübut etdilər.

Məzhəkəçilərin səhnəyə daxil olması bayram şənliyinə şənlik qatdı.

Şirvan şəhər İcra Hakimiyyətiin başçısı M.T.Camalov tədbirdə çıxış etdi. Balacalara xoş səmimi arzularını çatdırdı. Təhsildə, eləcə də bayram tədbirində fərqlənən 30 uşağa bayram hədiyyəsi verdi.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**



# 50 YAŞIN MÜBARƏK, 9 NÖMRƏLİ MƏKTƏB

## YADA DÜŞDÜ XATİRƏLƏR...

**Bu kimin üçün adi, kimin üçün isə qeyri-adi görüş idi. Sevinc-sevincə qarışmışdı. Təəccüb, təəssüf hissləri bəzən də göz yaşlarına çevrilirdi. Bir-birini qucaqalyıb bağrına basan kim...**

Məncə bu mənzərəni kənardan seyr edən qısqanc xanım da başqa qadını bağrına basan həyat yoldaşının «günahından» keçərdi. Axı, bunlar məzunlar idilər. Uzun illər bir-birini yaxından görməyən, səslərinə möhtac olduqları müəllimlərini, sinif yoldaşlarını bu gun görən məzunlar. O sinif yoldaşları ki, 1-ci sinifdən başlayaraq sonuncu sinfə kimi bu məktəbin pillələnlərini hər gün qalxıb düşüblər. Bu təhsil ocağının sinif otaqlarında, kitabxanasında, laboratoriyasında, idman zalında bir yerdə olublar.

On bir il ərzndə bu sinif yoldaşları sevinclərini, uğurlarını, qəmlərini bir bölüşüblər, küsüblər, barışıblar. Onlar uşaqlıq, yeniyetməlik illərini bu məktəbdə yaşamışlar.

Bu təhsil ocağı onlara çox şey verib: təhsil, təlim-tərbiyə. Həyat məktəbinin ilk, kövrək pillələrinə burada qədəm qoyublar. Sabaha burada hazırlaşıblar. Müəllimlərindən çox şey görüb-götürüblər. Hətta pedaqoqlardan danlaq da, məzəmmət də görüblər.

Bu günki məzunlar məhz bu məktəbdə ilk sevgini yaşayıblar. Seviblər, seviliblər. Bəziləri ailə xoşbəxtliyini də bu məktəbdə tapıblar.Sonradan xoşbəxt ailə qurublar. Onlar bu gün oğul-uşaq, nəvə sahibidirlər.

Bu məktəb adlı-sanlı oğullar, qızlar yetişdirib. Azərbaycanın Milli Qəhrəmanı Nofəl Quliyev bu məktəbin məzunu, yaşıdıdır. Sağ qalsaydı o da 50 yaşını məktəblə bir qeyd edərdi. Nofəl şəhidlik zirvəsinə yüksəldi. Məktəbinə, ona dərs deyən müəllimlərinə, elin, obanın, bütövlükdə doğma Azərbaycanının adına şan-şöhrət bəxş etdi.

Nofəl kimi məktəbin daha 12 nəfəri Vətən yolunda şəhid oldular. Mahmud İbrahimov, Telman Bağırov, Fariz Eynullayev, Əli Eyvazov və başqaları.

Məzun Rəfael Cəbrayılov Milli Məclisin üzvüdür. Nərgiz Səfərova BDU-nun Tətbiqi Riyaziyyat və ETİ-də elmi katibdir. Niyazi Həsənov iqtisadçı alimdir. Yunus Oguz tanınmış yazıçıdır. Gözəl tarixi romanlar müəllifidir. Nizaməddin Quliyev Dövlət Neft Şirkətində mətbuat xidmətinin rəhbəridir...



Neçə-neçə həkim, müəllim, sadə peşə adamı bu məktəbin məzunu olduqları üçün fəxr edirlər. Yaxşı nəyə nail olmuşlarsa, bu təhsil ocağına, onun cəfakeş, savadlı pedaqoqlarına minnətdar olduqlarını söyləyirlər.

Məzun- həkimlər -Oqtay Məmmədov, Sabutay Babayev, musiqiçi Rahib Məmmədov, müəllimlər Zülfiyyə və Sevda Qaraşovalar və başqaları burada idilər.

Bəli, onlar öz doğma təhsil ocaqalrının yarım əsrlik yubileyinə toplaşmışdılar.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Milli Məclisin deputatı R.Cəbrayılov, hüquq-mühafizə orqanlarının rəhbərləri öncə Azərbaycanın Milli Qəhrəmanı, məktəbin məzunu Nofəl Quliyevin abidəsi ətrafına tər çiçəklər düzdülər.

Azərbaycan Respublikasının dövlət himni ifa olundu. Məktəbin direktoru, əməkdar müəllim Ə.Hüseynov çıxış etdi. Ötən 50 ilə «ekskursiya» etdi.

İlk direktor Ərzuman Gülmalıyevi, sonradan kollektivə uzun müddət rəhbərlik etmiş Xavər Sayılovanı, ömrünü-gününü şagirdlərin təlim-tərbiyəsinə həsr etmiş pedaqoqları xatırladı. Vəfat edənlərə Allahdan rəhmət, qalanlara cansağlığı arzuladı.

Uğurlardan, nailiyyətlərdən söz açdı. Dedi ki, məktəb son bir neçə ildə əsaslı təmirdən sonra simasını tam dəyişmişdir.

2010-cu ildə məktəb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə «ilin ən yaxşı məktəbi» adına layiq görülmüşdür.

9 nömrəli məktəb məzunları, məzunlar isə məktəbləri, müəllimləri ilə fəxr edirlər. Bu təhsil ocağında biliklərə yiyələnib ali məktəblərə daxil olan gənclərin sayı ildən-ilə artır. İdman sahəsində, müxtəlif müsabiqələrdə, olimpiadalarda da 9№-li məktəb öndə gedir.

Milli Qəhrəman Nofəl Quliyevin oğlu, polis əməkdaşı İlkin Quliyev atasının adını daşıyan məktəbin 50 illik yubileyi münasibətilə təbriklərini iştirakçılara çatdırdı. Atasının ehtiramını əziz tutan kollektivə, şəhər rəhbərliyinə təşəkkür etdi.

Şirvan şəhər Bələdiyyəsinin sədri Ə.Babayev da çıxışında yubiley münasibətilə pedaqoji kollektivə təbriklərini çatdırdı, xalça hədiyyə etdi.

Nazilə Teymurova 30 il bu məktəbdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Təcrübəli pedaqoq sevincini kollektivlə bölüşdü.

Məzunlardan, Milli Məclisin deputatı Rəfael Cəbrayılov, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Niyazi Həsənov, Dilarə Yusif qızı çıxış etdilər. Yubiley münasibətilə kollektivi, tədbir iştirakçılarını təbrik etdilər, məktəblə bağlı xatirələrini söylədilər.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov təhsilə, məktəbə, müəllimə dövlət səviyyəsində göstərilən qayğıdan danışdı. Ulu öndər Heydər Əliyev yolunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti, UNESKO, İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın diqqət və köməyindən geniş söz açdı.

Başçı müəllimlərə, məzunlara, şagirdlərə yubiley münasibətilə xoş arzularını çatdırdı, bir qrupa icra hakimiyyətinin fəxri fərmanlarını təqdim etdi.

Yubiley tədbiri məktəbin bədii-özfəaliyyət kollektivinin hazırladığı ədəbi-bədii kompozisiya ilə yekunlaşdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**



# ŞƏHƏRİN BAŞ PLAN LAYİHƏSİNİN TƏQDİMATI

**Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, tapşırıq və tövsiyələri əsasında respublikamızda şəhərsalma və tikinti sahəsində çox böyük işlər görülmüş, bir sıra nailiyyətlər əldə edilmiş, bu sahəni tənzimləyən Qanunlar, Fərmanlar, Sərəncamlar və müvafiq qərarlar imzalanmaqla yeni normativ-hüquqi baza yaradılmışdır.**

Yeni qəbul edilmiş “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi”nə və inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrinə uyğun olaraq “Şirvan şəhərinin Dövlət şəhərsalma kadastrının yaradılması” layihəsinin icrası, müvafiq satınalma proseduru əsasında Azərbaycan şirkəti “İNTEGRİS” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən, oxşar layihələrdə uğurlu təcrübələrə malik Litva Respublikasının “Vilnüs planas” müəssisəsi və “HNİT-BALTİC” Qapalı Səhmdar Cəmiyyətini cəlb etməklə həyata keçirilir.



Layihə çərçivəsində Şirvan şəhərinin baş planı, müvafiq ərazinin müfəssəl planlaşdırma layihəsinin hazırlanması, Dövlət şəhərsalma kadastrının sisteminin, yeni tikililərin reyestri informasiya sistemi və şəhərin 3D modelinin yaradılması və tətbiqi həyata keçiriləcəkdir.

Şirvan şəhərinin Dövlət şəhərsalma kadastrının yaradılmasının başlıca məqsədlərindən biri şəhərsalma fəaliyyəti həyata keçirilən zaman ərazinin kompleks idarə olunması və tənzimlənməsində, tikintiyə icazə verilməsi və onun istismara qəbulu prosedurlarında aşkarlığın, şəffaflığın, vahid pəncərə sisteminin təmin edilməsi şərti ilə müvafiq qərarların qəbul edilməsində istifadə edilən və lazım gəldikdə istifadəçilərə təqdim edilən toplanılmış, qeydiyyatdan keçirilmiş, mühafizə olunan şəhərsalma kadastr məlumatlarından ibarət müvafiq dövlət informasiya sisteminin yaradılmasıdır.

“Şirvan şəhərinin Dövlət şəhərsalma kadastrının yaradılması” layihəsinin növbəti mərhələsi olaraq “İNTEGRİS” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən beynəlxalq təcrübəyə, xüsusən də Litva təcrübəsinə əsaslanaraq Şirvan şəhərinin yeni baş planı da hazırlanmış və Şirvan şəhər İcra Hakimiyyətində təqdimatı keçirilmişdir. Təqdimatda Şirvan Şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev və məsul işçilər, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları, Şirvan şəhərində fəaliyyət göstərən qurumların, ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Şirkət nümayəndələri təqdimat iştirakçılarına Baş plan layihəsi barədə, tətbiq olunan yeniliklər haqqında ətraflı məlumat vermiş, onları maraqlandıran sualları cavablandırmışlar. Məlumat verilmişdir ki, Baş plan layihəsi iki mərhələni -- I mərhələ olaraq 2020-ci ilə qədər olan dövrü, II mərhələ isə perespektiv olaraq 2033-cü ilə qədər olan dövrü əhatə edəcəkdir.

Təqdimat başa çatdıqdan sonra layihə tapşırığına uyğun olaraq Baş plan layihəsi 60 gün müddətində ictimaiyyətin müzakirəsinə təqdim olunmuşdur. Şirvan şəhərinin sakinləri Şirvan şəhərinin Baş planının layihəsi ilə Şirvan şəhər İcra Hakimiyyətinin inzibati binasında tanış ola bilərlər.

**«İŞIQ»**

# 2013-cü ildə Şirvan şəhərində əmək bazarının vəziyyəti haqqında



**M.Mustafayev,**
**Şirvan şəhər Statistika İdarəsinin rəisi**

**Ölkədə son illərdə həyata keçirilən sosial siyasətin aparıcı sahələrindən biri də məşğulluğa dair siyasətin həyata keçirilməsi və əmək resurslarından səmərəli istifadə edilməsidir. Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Əsas məqsəd iqtisadi inkişafın regional baxımdan tarazlığının təmin edilməsi, bölgələrdə əhalinin sosial rifahının yüksəldilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsidir. Bu baxımdan Şirvan şəhərində də əsaslı işlər görülmüş, əmək bazarının formalaş-masında keyfiyyət dəyişikliklərinə nail olunmuşdur.**

01.01.2014-cü il tarixə Şirvan şəhərində əhalinin orta illik sayı 81.3 min nəfər olmuşdur ki, bunun da 39.9 min nəfərini kişilər, 41.4 min nəfərini qadınlar təşkil etmişlər. Onlardan əmək qabiliyyətli yaşda olan əhalinin sayı 58968 nəfər olmuş, onlardan 29185 nəfərini kişilər, 29783 nəfərini isə qadınlar təşkil etmişlər.

2013-cü ildə Şirvan şəhərində məşğul əhalinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.2 % artaraq 40746 nəfər olmuşdur. Məşğul əhali şəhər üzrə ümumi əhalinin 50.3%-ni təşkil etmişdir.

01.01.2014-cü il tarixə məşğulluq xidməti orqanı tərəfindən rəsmi işsiz statusu alanların sayı 721 nəfər kimi qeydə alınmışdır. Onlardan 56 nəfər müavinət alan qeydə alınmışdır.

Araşdırılan dövrdə şəhərimizdə məşğul əhalinin tərkibində muzdla işləyənlərin sayı 15978 nəfər olmuşdur ki, bunun da 49.5 faizi dövlət, 50.5 faizi qeyri-dövlət sektorunda çalışanlardır. Muzdla işləyənlər şəhər üzrə məşğul əhalinin 39.2 faizini təşkil etmişdir.

2013-cü il ərzində şəhər üzrə muzdla işləyənlərdən təxminən 37.6 faizi istehsal, 62.4 faizi isə xidmət sahələrində çalışmışlar.

Şəhər üzrə muzdla işləyənlərin 2.7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 14.3 faizi mədənçıxarma sənayesi, 9.4 faizi emal sənayesi, 6.8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2.3 faizi su təchizatı, tullantıların təmizlənməsi, 2.2 faizi tikinti, 26.5 faizi topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri, 0.7 faizi nəqliyyat, anbar təsərrüfatı, 0.4 faizi rabitə, 1.2 faizi maliyyə və sığorta fəaliyyəti, 6.9 faizi dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat, 14.3 faizi təhsil, 8.7 faizi səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3.6 faizi digər xidmətlərin göstərilməsi sahəsində qeydə alınmışdır. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Əməyə dair statistik hesabatlarda müəssisə və təşkilatların əsas fəaliyyətində çalışan işçilərin siyahı tərkibinin dəyişməsini səciyyələndirən işçi qüvvəsinin hərəkəti, yəni işçilərin işə qəbulu və işdən çıxması göstəricisidir. 2013-cü il ərzində 2458 nəfər işçi işə qəbul edilmiş, 840 nəfər işçi isə müxtəlif səbəblərdən işdən azad olunmuşdur.

Dövlətin ən mühüm qayğılarından biri də əhalinin sosial rifahının gücləndirilməsidir. Sosial müdafiə sahəsində əsas məqsəd əmək və məşğulluq fəaliyyətini gücləndirərək əhalinin həyat səviyyəsini yüksəltməkdir. Bu istiqamətdə əsas meyarlardan biri də orta aylıq nominal əmək haqqı hesab edilir. 2013-cü ilin yanvar-dekabr aylarında Şirvan şəhərində iqtisadiyyatın bütün sahələri üzrə muzdla işləyən bir işçiyə düşən orta aylıq nominal əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.5 % artaraq 353.8 manat olmuşdur. Minimum əmək haqqı araşdırılan dövrdə 105,0 manat müəyyən edilmişdir.

2013-cü ildə ən yüksək orta aylıq nominal əmək haqqı şəhərdə maliyyə fəaliyyəti sahəsində - 894.8 manat, mədənçıxarma sahəsində - 758.8 manat qeydə alınmışdır. Orta aylıq nominal əmək haqqı iqtisadiyyatın kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 161.5 manat, emal sahəsində 357.5 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 450.9 manat, tikintidə 225.5 manat, topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri sahəsində 218.3 manat, nəqliyyatda 181.2 manat, informasiya və rabitə sahəsində 337.1 manat, dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat sahəsində 405.1 manat, təhsil sahəsində 310.0 manat, səhiyyə sahəsində 194.8 manat və s. olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq nominal əmək haqqı göstəricisi kənd təsərrüfatında 2.4 faiz, emal sənayesində 10.1 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 3.5 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 10.7 faiz, maliyyə və sığorta sahəsində 16.5 faiz, təhsildə 3.2 faiz, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində isə 5.5 faiz artmışdır.

Ölkədə aparılan sosial - iqtisadi layihələr iqtisadiyyatda mühüm müsbət nəticələrə səbəb olmuş, makroiqtisadi sabitliyə nail olunaraq ardıcıl iqtisadi inkişaf təmin edilmişdir. Bu baxımdan ölkə Prezidentinin müvafiq fərmanları ilə təsdiq olunmuş 2004-2008, 2009-2013-cü illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının rolu xüsusilə önəmlidir. Proqramın icrası istiqamətində Şirvan şəhərində bir çox nailiyyətlər əldə olunmuşdur. Belə ki, 2013-cü ildə Şirvanda yeni gücü 780 meqavat olan “Cənub” Elektrik stansiyası istismara verilmiş, Müdafiə Sənayesi Nazirliyinin zavodlarında yeni istehsal sahələri yaradılmış, Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir. Bunun nəticəsi olaraq 2013-cü il ərzində 1005 yeni açılmış daimi iş yerləri yaradılmışdır ki, onun da 449-u yeni yaradılmış müəssisə və təşkilatların payına düşmüşdür. Ümumilikdə 2003-cü ildən 01.01.2014-cü il tarixə qədər olan müddətdə yeni açılmış daimi iş yerlərinin sayı 10244 iş yeri olmuşdur. Ondan 2708-i yeni yaradılmış, 2310-u mövcud, 136-sı fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, qalanları isə fiziki şəxslərdə yaradılmışdır. Yeni yaradılmış iş yerləri iqtisadiyyatın bütün sahələrini əhatə etməklə, əsasən qeyri-neft sektorunun payına düşmüşdür.

2013-cü il ərzində açılmış yeni iş yerlərindən daimi iş yerləri tam olaraq qeyri-neft sektorunda o cümlədən 25.0 faizi emal sənayesi, 7.5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 2.3 faizi topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri sahəsində, 6.6 faizi maliyyə və sığorta fəaliyyəti sahəsində, 0.3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, eləcə də digər fəaliyyət sahələri üzrə ixtisaslaşan müəssisə və təşkilatlarda yaradılmışdır.

# «NARKOMANİYAYA YOX!»

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının «Kimsəsiz və Aztəminatlı Ailələrin Uşaqlarına Sosial- Mənəvi Dəstək» İctimai Birliyi 4 ildir ki, şəhərimizdə fəaliyyət göstərir. Müxtəlif layihələri uğurla həyata keçirən birlik bu dəfə Şirvan, Salyan, Hacıqabulda «Narkomaniya, HİV-ə qarşı mübarizə profilaktikası, risk qrupuna daxil olan uşaq və gənclərin bu təsirlərdən qorunması üzrə maarifləndirmə» layihəsini reallaşdırdı.**

Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində keçirilən tədbiri birliyin sədri Təranə Əhməd açdı.O, bəşəriyyətin üzləşdiyi narkomaniya və HİV bəlasından danışdı. Bu bəlanın uşaq və gəncləri sürətlə öz ağuşna aldığından faktlarla söz açdı.

Şirvan şəhər Polis şöbəsinin əməkdaşı, ictimai təhlükəsizlik bölməsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru polis kapitanı Zamik Kərimov narkotik istifadəçiləri və yoluxanlarla aparılan işlərdən danışdı. Polis əməkdaşı bu fikri dönə-dönə xatırlatdı ki, narkomaniyaya qarşı mübarizəyə hamılıqla cəlb olunmalıyıq. Şəhərin həkim-psixatrı K.Mirzəyev, respublika QİÇS-lə Mübarizə Mərkəzi Şirvan regional laboratoriyasının müdiri E.Qədirli, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbə müdiri T.Əliyev, təlimçi Şahin Rəcəbli çıxış etdilər.

Narahatlıqla qeyd olundu ki, son dövrlərdə QİÇS-lə yoluxanların sayı xeyli artıb. Qeyd olunan bəla ilə mübarizə üsulları profilaktika, reabilitasiya və maarifləndirməkdir. Bu istiqamətdə kimsəsiz ailələrə, nəzarətsiz uşaqlara iş, mənəvi əxlaqi dəyərlərin və sağlam həyat tərzinin təbliği vacibdir.

Gəncləri maraqlandıran suallar ətraflı cavablandırıldı.

Salyan və Hacıqabul rayonlarından sonra eyniadlı tədbir Şirvan şəhər Mərkəzi kitabxanasında gənclərlə keçirildi.

Oğlan və qızlar polis əməkdaşlarına və həkimlərə onları narahat edən suallarla müraciət etdilər.

Tədbirin təşkilatçıları canlı dialoqa üstünlük verərək bu vacib məsələyə həssaslıq, diqqətlə yanaşmağın vacibliyini söylədilər.

**«İŞIQ»**

# TƏKLİFLƏR VERİLDİ, MƏSLƏHƏTLƏŞMƏLƏR OLDU

**Yol mədəniyyətdir, yol sağlamlıqdır, yol yoxsulluğun aradan qaldırılmasında mühüm amildir. Əlbəttə söhbət rahat, müasir tələblərə cavab verən yoldan gedir. Son illərdə respublikamızda yol tikintisinin sürətlə aparıldığının şahidi oluruq. Elə bu istiqamətdə şəhərimizdə də xeyli işlər görülmüşdür.**

Şirvan-Salyan- Neftçala magistral yolun yenidən qurulacağı haqqında söhbətlər eşidirdik...

Bu istiqamətdə yolun qurulması Azərbaycan Regional Yolların İnkişafı çərçivəsində həyata keçiriləcək. Azərbaycan dövləti və Dünya Bankı bu layihəni maliyyələşdirəcək.

Bu günlərdə layihənin işçi qrupu tərəfindən görüləcək işlər barədə ictimaiyyətin məlumatlandırılması istiqamətində şəhərimizdə təqdimat keçirilmişdir.

Qeyd olunmuşdur ki, 2013-cü ilin mart ayında beynəlxalq və yerli ekoloqlar yolkənarı sosial və ekoloji vəziyyəti hərtərəfli araşdırmış, sakinlərlə görüşmüşlər. Onlar eyni zamanda ətraf mühitə olan təsirin qiymətləndirilməsi sənədini hazırlayıb Dünya Bankına təqdim etmişlər.

Görüləcək işlərin təsviri, köçürülmə siyasətinin çərçivə (KSÇ) sənədlərinin əsas məqamları layihənin yerli məsləhətçisi Sərdar Hüseynov tərəfindən izah edilmişdir.

2015-ci ilin əvvəllərindən tikintisinə başlanacaq Şirvan-Salyan-Neftçala yolu barədə sosial və ekoloji məsələlər üzrə məsləhətçi İlahə İlyasova ətraflı məlumat verdi.

Tədbirdə Şirvan şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev, QHT nümayəndələri, ictimai təşkilatların rəhbərləri, 34 nömrəli yol istismar sahəsinin rəisi Ş.Məmmədov təkliflərini vermişlər.

İştirakçılar tərəfindən də maraqlı təkliflər verildi, məsləhətləşmələr oldu.

**«İŞIQ»**

## 17 İYUN -TİBB İŞÇİLƏRİ GÜNÜDÜR

# İNSANLARIN SAĞLAMLIĞI KEŞİYİNDƏ

Təqvim ilini yola salanda olduğu kimi, hər dəfə tibb işçilərinin peşə bayramı yaxınlaşanda fikirləşirəm: ötən müddətdə necə işləmişik? Uğurlarımız çoxdur, çatışmazlıqlarımız? Açığını deyim ki, bu suallara cavab tapmaqda çətinlik çəkmirəm. Təvazökarlıqdan kənar olsa da, deməliyəm ki, gördüyümüz ürəkaçan işlərimiz çoxdur. Demirəm ki, çətinliklərimiz, problemlərimiz olmayıb? Olub? Amma onları işgüzar, bacarıqlı, öz işinə vicdanla yanaşan ağxalatlılarımızın birgə səyi ilə vaxtında aradan qaldırmışıq.



**Fərhad SƏFƏROV,**
**Şirvan ŞMX-nin baş həkimi**

İnsanların sağlamlığı keşiyində durmaqdan gözəl iş ola bilərmi?! Yaradanın izni, həkimlərimizin peşəkarlıqları hesabına dünyaya, ailəsinə, çalışdığı kollektivinə qaytardığımız xəstənin razılıqlarını eşitməkdən böyük xoşbəxtlik varmı? Bizim üçün bundan gözəl anlar, dəqiqələr yoxdur. Elə buna görə də bizim adımıza qonşu rayonlardan, kəndlərdən gələn pasientlərin sayı ildən-ilə artır.

İnam, etibar qazanmaq bütün peşə sahibi üçün vacib amildir. Sənə məxsus texnikanı, hansısa əşyanı kiməsə etibar edə bilərsən. Məncə burada yanlışlıq, diqqətsizlik olsa o qədər də böyük fəlakət olmaz. Amma Allah bəxş etdiyi əmanətican əmanətini hər kəsə etibar etmək mümkün deyil. Yenə təkrar edirəm: şükürlər olsun, biz xəstə etimadını, inamını qazanmışıq.

Böyük kollektivimiz var. 1000 nəfərdən çox ağxalatlı insanların sağlamlığı keşiyində dayanıblar. Əksəriyyəti qadın olan kollektivimiz cari ilin əvvəlindən də vəzifə borcunu layiqincə yerinə yetirir. Bir neçə rəqəmə nəzər salaq.

2014-cü ilin əvvəlindən şəhər əhalisi arasında sağlamlaşdırma tədbirləri uğurla keçirilir. Bu dövr ərzində şəhər üzrə 90519 ambulator qəbulu keçirilmişdir. Qəbul zamanı 66 nəfər ilkin şəkərli diabetlə qeydə alınmışdır. Hazırda bu xəstəliklə 2261 nəfər dispanser müşahidədədir. Vərəm 8 nəfərdə ilkin aşkarlanıb. Xroniki böyrək çatışmazlığı ilkin 3 nəfər, ümumi 92 nəfər qeydiyyatdadır. Narkomaniya üzrə 25 nəfər ilkin, 771 nəfər ümumi qeydiyyatdadır. 20 nəfər ruhi-əsəb xəstəliyi ilə ilkin, 841 nəfər ümumi qeydiyyatdadır. 18 nəfər talessimiyalı və 11 nəfər hemofiliya xəstəsi dispanser müşhidədədir. Qeydiyyatda olan xəstələr vaxtaşırı pulsuz dərmanlarla, qan pereparatları ilə təmin olunurlar.

Uşaqlar bizim sabahımız, gələcəyimizdir. Kiçik vətəndaşlarımıza xüsusi qayğı, diqqətlə yanaşırıq. Uşaq poliklinikasında ilin əvvəlindən 50 000-dən çox qəbul keçirilmişdir. Bunların 62 nəfəri nevroloji, 1 şəkərli diabet, 4 nəfər vərəm xəstəsidir. 2 min nəfərdən çox uşağa müxtəlif peyvəndlər olunmuşdur. Bu müddət ərzində stasionara 48 uşaq daxil olub. Təcili Təxirəsalınmaz Tibbi Yardım stansiyasında bu müddət ərzində 6373 çağırış həyata keçirilmişdir. 6267 nəfərə ilkin tibbi yardım göstərilmişdir.

İlin əvvəlindən şəhər mərkəzi xəstəxanasının bir neçə tibbi Şura iclası keçirilmişdir. Həmin iclaslarda 10-dan çox məsələ müzakirə olunmuş, lazımi qərarlar qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyev siyasi kursu ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Müstəqil Azərbaycanımızın bütün şəhərlərində olduğu kimi, səhiyyədə sürətli inkişafa nail olunmuşdur.Ölkə başçısının səhiyyə sahəsində müəyyən etdiyi proqramların həyata keçirilməsi bəhrəsini verir. Bu da inkaredilməz faktdır ki, ölkəmizin sürətli iqtisadi inkişafı əhalinin səmərəli, hərtərəfli tibbi müayinədən keçməsini təmin etmişdir. Şəhərimizdə də Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən fevral ayının 17-dən may ayının 1-dək əhali tibbi müayinədən keçmişdir.

Həmin müddətdə şəhər poliklinikasına axın olmuşdur. Müayinələrin aparılması əhalinin sağlamlığının qorunmasına, xəstəliklərin erkən aşkarlanmasına xidmət edirdi.

Aksiya şəhərimizdə də mütəşəkkilliklə başa çatıb. Poliklinikanın 200 nəfərdən artıq həkim, orta tibb işçisi aksiyaya cəlb olunanlara qayğı, peşəkarlıqla yanaşdılar. Hər gün 300-400 nəfər tibbi müayinədən keçirdi. Aşkarlanan xəstələr nəzarətə götürülür, müalicəyə cəlb olunurdular.

Profilaktiki müayinə zamanı əhaliyə terapevt, cərrah, nevropatoloq, göz həkimi,başqa ixtisaslı həkimlər xidmət göstərdilər. Bu peşəkar ağxalatlıların səyi ilə fevralın 17-dən mayın 1-dək 54360 nəfər şəhər əhalisi tibbi müayinədən keçib. 2223 nəfər ambulator müalicəyə cəlb olunub.

Görülən işləri, rəqəmləri sadalamaqda məqsədim var. Axı, bu işlərin arxasında bizim cəfakeş ağxalatlıların yuxusuz gecələri, gərgin zəhmətləri dayanır. Tibb işçilərimiz vəzifə borclarını həmişə layiqincə yerinə yetirməyə səy göstəriblər.

Mən peşə bayramımız ərəfəsində Hippokrat andına sədaqətli olan tibb işçilərin adlarını çəkməyə çətinlik çəkirəm. Çünki onlar 1,5,10,100 deyillər. Onlar yüzlərlədir.

Fürsətdən istifadə edib kollektivimizi 17 iyun-Tibb İşçiləri Günü münasibətilə təbrik edirəm. İnsanlarımıza sağlamlıq bəxş edənlərin özlərinə ilk növbədə sağlam bədən, sağlam ruh arzulayıram.

**Bayramınız mübarək!**

**Şirvan şəhər Mərkəzi kitabxanasının qarşısındakı parkda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş «6-cı kitab bayramı» keçirildi. Bayram şənliyində şəhər icra hakimiyyətinin, şəhər Bələdiyyəsinin nümayəndələri, şəhər ictimaiyyəti, məktəblilər iştirak edirdi.**

# KİTAB BAYRAMI



Bayram münasibətilə parkda Heydər Əliyevin mədəniyyət, dil, kitab və kitabxana haqqında söylədikləri kəlamlar yazılmış şüarlar, bayramın adı yazılmış panno hazırlanmışdı.

Şəhər Uşaq Musiqi məktəbinin xor kollektivi Azərbaycan Respublikasının dövlət himnini ifa etdi. Sonra MKS-nin direktoru İltifat Nəbiyev giriş sözü ilə çıxış edərək «6-cı kitab bayramı»nın keçirilməsində məqsəd və şəhər əhalisinə kitabla xidmət işinin vəziyyəti barədə danışdı. O qeyd etdi ki, belə tədbirlərin keçirilməsi kitabxana ilə oxucular arasında əlaqəni daha da artırır.

Daha sonra tədbirdə fəal oxucu Şəhla Məcidova, jurnalist Yaqut Hüseynova, yazıçı-publisist Alik Rzayev ( onun yerli yazar kimi kitabları sərgiləndi) və başqaları çıxış etdilər.

Şəhər Uşaq Musiqi məktəbinin xor kollektivinin (rəhbəri V.Məhərrəmov, dirijor M.İsmayılova) və digər musiqi kollektivlərinin ifa etdikləri mahnılar, Şirvan Dövlət İqtisadiyyat və Humanitar kolleci tələbələrinin və 18 nömrəli məktəb şagirdlərinin təqdim etdikləri kompozisiya, qiraətçilərin söylədikləri şeirlər, kitab və mütaliə haqqında dahilərin söylədikləri kəlamlar və atalar sözləri əsasında hazırlanmış dialoqlar və başqa nömrələr maraqla qarşılandı.

Tədbirə gələnlər «Ümummilli lider Heydər Əliyev» guşəsi, kitabxananın hazırladığı müxtəlif mövzularda vitrin-kitab sərgiləri, MKS haqqında məlumat, təsnifat əsasında tərtib olunmuş stolüstü kitab sərgiləri, uşaq ədəbiyyatı və yeni alınmış kitablarla, eyni zamanda yerli yazarların çap olunmuş kitabları ilə tanış oldular.

**Rəna ƏLƏKBƏROVA,**
**kitabxananın əməkdaşı**

# XATİRƏSİ QƏLBİMİZDƏ YAŞAYACAQ

**Taleh elə gətirib ki, o ailə üzvlərimin əksəriyyətinin müəllimi olub. Şəhərimizdə idmanın inkişafında xüsusi zəhməti olmuş fiziki tərbiyə müəllimi Azər Babayevi deyirəm.**



Şəhərimizdə yüngül atletika üzrə yığma komandanı da məhz Azər Babayev yaratmışdı. Ciddi məşqlərdən sonra bu komanda zona birinciliklərində, respublika yarışlarında uğurlu çıxış etmişdir.

A.Babayev 1962-ci ildən şəhərimizdə idman müəllimi kimi fəaliyyətə başlamışdır. Ali təhsilli mütəxəssis ilk gündən işgüzarlığı, bacarığı ilə diqqəti cəlb etmişdir. Gənc sənaye şəhərinin oğlan və qızlarının yüngül atletikaya cəlb olunmasında əlindən gələni əsirgəmirdi. Az vaxtda yetişdirdiyi idmançılar respublika miqyasında fərqləndilər. Yetirmələri Fəxrəddin Abbasov, Fikrət Qasımov, Mətanət Rzayeva, Mülkücahan Salahova, Çimnaz Həmidova və başqaları məhz Azər müəllimin səyi, köməyi ilə bacarıqlı idmançı və ixtisaslı bədən tərbiyəsi müəllimi kimi yetişmişdilər.

Şəhərin müxtəlif məktəblərində fiziki tərbiyə müəllimi işləmiş Azər Babayevin son iş yeri 16 nömrəli tam orta məktəb olmuşdu. Təqaüdə çıxandan sonra Bakıya köçmüşdü.

Ali dərəcəli müəllim A.Babayev keçmiş SSRİ-nin «Maarif əlaçısı» idi. Respublika dərəcəli hakim kimi də tanınırdı.

Azər Babayevin bu günlərdə qəfil vəfatı xəbəri onu tanıyanları hədsiz kədərləndirdi. Eləcə məni də...

Gözəl insan, səmimi yoldaş, bacarıqlı müəllim və məşqçi Azər müəllimin xatirəsi qəlbimizdə daima yaşayacaq.

Allah rəhmət eləsin!

**F.RƏHİMOV**


## E L A N

Şirvan şəhəri, Naxçıvan küçəsi 73 ünvanında yerləşən Əmlak kompleksi satılır.
Əmlak kompleksinə aşağıdakılar aiddir.
1.Çoban evi-41,40 kv.m
2.Tövlə- 67,20 kv.m
3.Tövlə- 406,60 kv.m
4.Cücə sexi - 76,20 kv.m
5.Cözətçi otağı- 8,40 kv.m
Əmlak kompleksi daş hasarla əhatə olunub.
Maraqlananlar aşağıdakı ünvana müraciət edə bilər.
Salyan şəhər, H.Əliyev küçəsi № 108 «Aqrarkredit» Səhmdar kredit Təşkilatının Salyan filialı.
Əlaqə telefonları.
(021) 255-22-11
(021) 255-52-86
(012) 497-50-02
**«Aqrarkredit» SKT Salyan filialı**


## «İŞIQ»- 2014
## ƏZİZ OXUCULAR!

2014-cü ilin II yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.
6 aylıq abunə haqqı 12 manatdır.
«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və Şirvan şəhər mətbuat yayımı şöbəsində yazılmaq olar.
H\ h- AZ39AIIB
33060019444100281141.VÖEN -2100104521.
İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

## ETIBARSIZDIR

Atakişiyev Ədalət Mirzəməmməd oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Baş redaktor: M.M.XƏLİLOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200